# NÜMUNƏVİ MƏKTƏB



**Aydındır ki, milli təhsil sistemimizin tarixi Azərbaycan Xalq Cümhuriyyətinin Gəncə şəhərində 28 avqust 1918-ci ildə verdiyi dekretlə başlayıb. Məktəblərin milliləşdirilməsi haqqındakı bu qərarla ilk dəfə ana dili bərabərhüquqlu dil kimi elan edilib və azərbaycanlılar öz ana dilində oxumağın nəinki mümkün olduğunu, hətta zəruriliyini başa düşüblər. Həm də 100 il əvvəl xüsusilə mürəkkəb şəraitdə uşaqları anadilli, yeni məzmunlu proqram və dərsliklərlə fəaliyyət göstərən məktəblərə cəlb etmək çox çətin olub.**

İlk tarixi dekretin mahiyyətinin valideynlər tərəfindən dərk edilməsi üçün mütərəqqi fikirli ziyalılar, müəllimlər mütəmadi olaraq onlarla görüşüb, söhbətlər aparmış, xalqın gözünün açılmasına çalışmışlar. Bu istiqamətdə çox səy göstərən Abbas Səhhətlə "Nümunə məktəbi"nin yaradıcısı Abdulla Şaiqin adını çəkməsək, bu, ən azından milli yaddaşımıza xəyanət, unutqanlıq olar. Həmin vaxtdan təhsil tariximizə "Abdulla Şaiq adına Nümunə məktəbi" daxil oldu.

Qeyd etdiyimiz kimi, A.Şaiqin yaratdığı "Nümunə məktəbi" sonralar "Abdulla Şaiq adına Nümunə məktəbi" kimi şöhrət qazandı və beləliklə, Azərbaycanda ilk milliləşdirilmiş məktəbin təməli qoyuldu. Bununla da məktəb tarixində dünyəvi proqramları, təlim-tərbiyə üsullarını özündə ehtiva edən milli təhsilin tədrisinə başlanıldı. A.Şaiqin rəhbərliyi ilə adıçəkilən təhsil ocağındakı problemlər aradan qaldırıldı və tədris planları məktəbin pedaqoji şurasında müzakirə olunaraq təsdiq edildi. Artıq 1918-1919-cu dərs ilində məktəb yeni tədris planları ilə fəaliyyətə başladı...

ADR hökumətinin süqutundan sonra da müəyyən müddətə qədər davam edən "Nümunə məktəbi"nin ilk buraxılışında şagirdlərin qarşısında çıxış edən Nəriman Nərimanov Azərbaycanın işıqlı gələcəyindən, məktəb məzunlarının qarşısında duran vəzifələrdən danışıb. Məktəbdə milli-bəşəri səciyyəli prinsiplərə əsaslanaraq gənc nəslə mənəvi-əxlaqi dəyərlər aşılayan məsələlərdən bəhs edən N.Nərimanov tədris-təlimin məhz bu məzmunda aparılmasını arzulamışdır. O, "Nümunə məktəbi"ndə məhz milli qürur və düşüncəyə malik müəllimlərin işləməsinin vacib olduğunu bildirib.

Lakin bir müddət sonra Maarif Komissarlığının 48 saylı 15 dekabr 1923-cü il tarixli qərarı ilə guya sovet ideologiyasına zidd fəaliyyət göstərən "Nümunə məktəbi"nə sonrakı illər üçün şagird qəbulu dayandırıldı...

2018-ci ildə 100 yaşını qeyd etdiyimiz "Şaiq Nümunə məktəbi"nin sırası ötən illərdə xüsusilə genişlənib. Azərbaycanda maarifçilik hərəkatının fədailərindən olan H.Zərdabi, M.T.Sidqi, M.Mahmudbəyov, F.Köçərli, R.Əfəndiyev, S.M.Qənizadə, Ü.Hacıbəyli, F.Ağazadə, S.S.Axundov və A.Şaiqin arzuları gerçəkləşib. Azərbaycanlı oğul və qızlarımız müasir avadanlıqlarla təmin olunmuş müasir tipli məktəblərdə təhsil alıblar.

İndi bu təhsil ocağının yüzlərlə nümunəsi var. Belə müasir "Nümunə məktəb"lərindən biri də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın açılışında iştirak etdikləri İlyas Əfəndiyev adına Elitar Gimnaziyadır. Bu məktəb Bakı şəhərinin Nəsimi rayonu ərazisində yerləşir. Haqqında söhbət açdığımız Gimnaziyanın direktoru Əməkdar müəllim Sevda xanım Quliyevadır. Böyük fərəhlə qeyd etmək istərdik ki, Elitar Gimnaziyada tədrisin keyfiyyətinin günügündən yüksəldilməsində, şagird-müəllim münasibətlərinin yeni prinsiplərlə qurulmasında, bir sözlə, məktəbin qazandığı bütün uğurlarda S.Quliyevanın fəaliyyəti milli təhsilimizin inkişafında böyük əhəmiyyət kəsb edir.

Xatırladaq ki, Elitar Gimnaziya iki korpusdan ibarətdir. Əsas bina ötən əsrin 30-cu illərində tikilib. İkinci Dünya müharibəsi illərində 132-134 saylı məktəblər kimi, bu məktəb də Hərbi Hospital olaraq fəaliyyət göstərib. 1998-ci ildən Təhsil Problemləri İnstitutunun bazasında olub. Azərbaycan Respublikası Təhsil Nazirliyinin 1 fevral 2002-ci il tarixli 113 saylı əmri ilə məktəb gimnaziyaya çevrilib və onun nizamnaməsi təsdiq olunub. Təhsil Nazirliyinin 8 aprel 2002-ci il tarixli 25 saylı əmri ilə məktəb nazirliyin tabeliyinə keçib.

Bu gün yüzillik tarixə malik olan "Nümunə məktəbi"nin ənənələrinə söykənmiş məktəblərin sırası getdikcə böyüyüb. Müstəqil Azərbaycan Respublikasının Təhsil Nazirliyi ABŞ, Fransa, Böyük Britaniya, Qazaxıstan, Almaniya, Rusiya, Çin, Yaponiya, İsrail, Cənubi Koreya, Səudiyyə Ərəbistanı Krallığı, Türkiyə, İran, Misir, Hindistan, Ukrayna, Gürcüstan, Moldova, Çexiya, Slovakiya, Özbəkistan və Polşa kimi ölkələrlə birbaşa əlaqələr yaradıb və bu əməkdaşlıq bu gün də uğurla davam etdirilir. Dünyanın ən inkişaf etmiş ölkələri ilə "Qardaşlaşmış məktəblər" sülhə, dostluğa, əmin-amanlığa, elmin inkişafına imza atırlar. Dünyanın təhsil proqramlarına qoşulmaq və onların işində yaxından iştirak etmək Azərbaycanın beynəlxalq əlaqələrini şərtləndirir.

Təhsil Nazirliyinin çox sıx və səmərəli əməkdaşlıq etdiyi təşkilatlar sırasında Valideyn-Müəllim Assosiasiyasının (VMA) fəaliyyəti daha parlaqdır. Azərbaycanın aparıcı məktəblərindən olan İlyas Əfəndiyev adına Elitar Gimnaziya da beynəlmiləl təhsil müəssisələri arasında özünün qabaqcıl iş prinsipi ilə fərqlənir.

Xatırladaq ki, 2007-2008-ci tədris ilinin yekunlarına görə, Gimnaziya "Ən yaxşı ümumtəhsil məktəbi" müsabiqəsinin qalibi olub. 2017-ci ildə keçirilən bakalavriat səviyyəsində qəbul imtahanları zamanı məktəbin 12 şagirdi 600-dən yuxarı bal toplayıb. 2018-ci ildə isə məktəbin bir şagirdi 700 bal toplayıb. Bütün bu uğurların qazanılmasında Elitar Gimnaziyanın tədris üzrə direktor müavini Elmira Salahovanın pedaqoji fəaliyyəti danılmazdır. Elmira müəllim ömrünün ən məhsuldar illərini gənc nəslin təlim-tərbiyəsinə həsr etmişdir. Onda A.Şaiq, A.Səhhət, M.Ə.Sabirin maarifçilik yanğısı, milli təəssübkeşlik hissi var.

Sözün bu məqamında Elmira Salahovanın 2018-2019-cu tədris ili üçün fəaliyyət planına nəzər salmaq da, zənnimizcə, məqsədəuyğun olar. Beləliklə, ehtiyaca görə əlavə şagird qəbulunun keçirilməsində, I-V-XI siniflərin komplektləşdirilməsində, yeni dərs ili üçün dərs bölgüsünün müəyyənləşdirilməsində, Bilik gününün - yeni dərs ilinin qeyd edilməsi, vakant müəllim yerləri üçün müsabiqənin keçirilməsində, fənn kabinetlərinin, sinif otaqlarında tərtibat işlərinin yenilənməsində iştirak etmək təcrübəli pedaqoq kimi E.Salahovanın fəaliyyətinin əsas prinsipini təşkil edir. Həmçinin, fakültativ məşğələlərin müəyyənləşdirilməsi və cədvəllərin hazırlanması, siniflərdə ümumtəhsilin milli kurikulum ilə əlaqədar işin təşkili vəziyyəti ilə tanışlıq və lazımi köməklik göstərmək, məktəbdə müəllim gününün, eləcə də milli-mənəvi amala söykənən xüsusi günlərin qeyd olunması və onların ətrafında maarifləndirici söhbətlərin aparılması kimi işlər də Elmira müəllimin iş planının əsasını təşkil edir. Ümummilli lider Heydər Əliyevin ad günü və ildönümləri ilə əlaqədar keçiriləcək tədbirlərin təşkili, XI siniflərdə tam orta təhsil kursu üzrə ana dili, riyaziyyat, ingilis dili fənlərindən məktəbdaxili sınaqlarda qiymətləndirmənin nəticələrinin müzakirəsini də bura əlavə etsək, onun fəaliyyət planının nə qədər zəngin və məsul olduğunu gözümüzün qarşısında canlandıra bilərik.

Elmira Salahova üzərinə düşən məsul vəzifənin öhdəsindən bacarıqla gəlir. Bilik və bacarıqla yanaşı, yüksək intellekti, dünyagörüşü, vətənpərvərliyi onu bir pedaqoq olaraq çoxlarından fərqləndirir.

Adı görkəmli pedaqoqlar sırasında çəkilən Elmira Salahovanın yüksək bilik və bacarığına dəyər verən Bakı Şəhəri üzrə Təhsil İdarəsi (BŞTİ) ona təşəkkür elan edib.

Elmira xanım vaxtilə kollektivin onu doğması kimi qəbul etdiyini, ilk iş gününün xoş ovqatını hələ də unutmur. Bütün bunların müqabilində Elmira Salahova hər zaman ona göstərilən etimadı özünün pedaqoji fəaliyyətində layiqincə doğrultmağa çalışır.

**Sədiyar CAHANGİROĞLU.**

Respublika.-2019.- 30 noyabr.-S.7.